Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Ümumdünya şöhrəti qazanmış bəstəkar
# Fikrət Əmirov

**Fikrət Əmirovun 100 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2022**

**Tərtibçi:** **Nərgiz Məcidova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
**Əməkdar Mədəniyyət işçisi**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**Ümumdünya şöhrəti qazanmış bəstəkar -** Fikrət Əmirovun anadan olmasının 100 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. N.Məcidova ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2022. – 38s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2022**

## Tərtibçidən

Musiqinin bütün janrlarına müraciət edib çox dəyərli sənət əsərləri yaradan Fikrət Əmirovun əsərləri öz bədii məzmunu, etik əhəmiyyəti, yüksək fəlsəfi və psixoloji cəhətləri ilə həmişə aktual olmuşdur. Fikrət Əmirov Respublikamızın eləcədə ölkəmizin hüdudlarını adlayaraq ümumdünya şöhrəti qazanmış bir bəstəkardır. Əsərləri dünyanın bir çox böyük konsert salonlarında məşhur orkestrlərin ifasında səslənmiş görkəmli bəstəkar musiqinin bütün janrlarında istedadını sınayaraq öz məşhur operasını, simfonik əsərlərini, mahnılar yaratmışdır.Yaratdığı simfonik muğamları və digər əsərləri dünyanın müxtəlif ölkələrində səslənərək həm müəllifin, həm də Azərbaycanımızın adını yüksək zirvələrə qaldırmışdır. Azərbaycan musiqi xəzinəsinin parlaq nümunələri sayılan bu müsiqilər - "Şur", "Kürdovşarı" muğamları musiqi xəzinəmizin zəngin nümunələrindəndir. Bəstələdiyi məşhur "Sevil" operası, "Gözün Aydın" operası uzun illərdir ki, səhnələrimizin repertuarından düşmür. İllərdir ki, M. F.Axundov adına Azərbaycan Opera və Balet Teatrlarımızın səhnəsində təkrar-təkrar nümayiş etdirilmişdir. Uzun müddət onun yaradıcılığında mühüm yer tutan "Min bir gecə" baleti ilk dəfə Opera və Balet teatrında tamaşaya qoyulmuşdur. Yüksək peşəkarlığına görə onun əsərləri peşəkarlar tərəfindən daim yüksək qiymətləndirilmiş və böyük xalq məhəbbəti ilə qarşılanmışdır. Musiqilərində yer alan milli ənənələr, vətəndaşlıq pafosu və humanizm ruhu, səmimilik emosionallıq onun musiqilərinin belə yüksək qiymətləndirilməsinə gətirib çıxartmışdır. Elə bəstəkarın musiqisinin böyük şöhrət tapmasının əsas səbəblərindən biri onun dərin milli zəminə bağlı olması olmuşdur. Bu səpkidə onun ən uğurlu əsərlərindən biri məhz simli orkestr üçün yazılmış "Nizami" simfoniyası sayılırdı. Nizaminin xatirəsinə həsr edilmiş bu simfoniya böyük şairin anadan olmasının 800 illiyi münasibətilə yazılmışdır.

2022-ci ilin noyabr ayında görkəmli bəstəkar, tanınmış ictimai xadim, SSRİ və Azərbaycan Respublikasının Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, Azərbaycan Respublikası Elmlər Akademiyasının müxbir üzvü olmuş Fikrət Məşədi Cəmil oğlu Əmirovun anadan olmasının 100 illiyi tamam olur. Fikrət Əmirovun yüz illiyinin keçirilməsi UNESCO-nun 2022–2023-cü illər üzrə görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin yubileyləri proqramına daxil edilmişdir. Bu münasibətlə respublikamızın bütün mədəniyyət ocaqlarında, kitabxanalarda, məktəblərdə bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Biz də F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Elmi metodika şöbəsi olaraq görkəmli bəstəkar haqqında olan bu vəsaiti işləməyi özümüzə borc bildik. Fikrət Əmirovun yubileyi ilə bağlı tərtib olunan bu vəsait bəstəkarın həyat və yaradıcılığından və yubileyi ilə bağlı keçiriləcək tədbirlərdən bəhs edir. İnanırıq ki, hazırladığımız bu metodik vəsait bəstəkar haqqında məlumatların əldə edilməsində  musiqiçilərlə yanaşı, geniş oxucu kütləsinin – məktəb və lisey müəllimlərinin də  istifadə edə biləcəyi bir vəsait olacaqdır.Vəsaitin II hissəsində yubilyarın yuz illik yubileyi münasibətilə keçiriləcək tədbirlər haqqında  ssenari ilə də tanış ola bilərsiniz.

## Fikrət Əmirov - 100

Azərbaycan klassik musiqi sənətinin görkəmli nümayəndəsi Fikrət Əmirov 22 noyabr 1922-ci ildə Gəncədə anadan olmuş – 20 fevral 1984-cü ildə Bakıda vəfat etmişdir. XX əsr Azərbaycan musiqi sənətinin aparıcı simalarından biri olmuş bəstəkar 1956–1959-cu illərdə Azərbaycan Dövlət Opera və Balet Teatrının direktoru 1947-ci ildə Azərbaycan Dövlət Filarmoniyasının bədii rəhbəri, 1959-cu ildən Azərbaycan Bəstəkarlar İttifaqının katibi, Azərbaycan SSR Ali Sovetinin IV–IX çağırış deputatı, 1980-ci ildən Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü. 1982-ci ildən Sosialist Əməyi Qəhrəmanı,1965-ci ildən SSRİ xalq artisti, 1958-ci ildən Azərbaycan SSR xalq artisti, 1955-ci ildən Azərbaycan SSR əməkdar incəsənət xadimi, fəxri adlarına layiq görülmüş,1980-cı ildən SSRİ Dövlət mükafatı, 1974-cü ildən Azərbaycan SSR Dövlət mükafatı,1949-cu ildən II dərəcəli Stalin mükafatı, 1967-ci ildə Azərbaycan SSR Lenin komsomolu mükafatı laureatı olmuş, iki dəfə 1959, 1982-ci illərdə *“Lenin”* ordeni , iki dəfə - 1967, 1971- ci illərdə “Qırmızı əmək bayrağı” ordeni ilə təltif edilmişdir. Təhsilini Bakı Musiqi Akademiyasında bəstəkar Üzeyir Hacıbəyovun və Boris Zeydmanın sinfində alan bəstəkar səhnə musiqisi sahəsində fəaliyyətinə *“Ürəkaçanlar”* və *“Gözün aydın”* musiqili komediyaları ilə başlamışdır. Onun ən uğurlu əsərlərindən biri simli orkestr üçün yazdığı “Nizami” simfoniyası olomuşdur ki, bu simfoniya dünyanın ən məşhur dirijorlarının rəhbərliyi ilə ifa olunaraq böyük uğura imza atmışdır. Bəstəkar 1948-ci ildə “Şur” və “Kürd-Ovşarı” simfonik muğamlarını yazmışdır. Bu simfonik muğamlar Bolqarıstanın, Belçikanın, Fransanın, ABŞ-ın konsert salonlarında dəfələrlə səsləndirilmişdir. Onun çılğın ehtirasla yoğrulmuş əsl Şərq təravətli, romantik əhval-ruhiyyəli musiqiləri təkcə Azərbaycanda

deyil, bir çox xarici ölkələr də dinləyicilərinin məhəbbətini qazanmışdır. İnsanlara öz musiqisi ilə mənəvi zənginlik aşılayan Fikrət Əmirovun məqsədi milli köklər zəmnində proffessional əsərlər yaratmaq idi. Bu cəhəti ona müəllimi Üzeyir Hacıbəyov yaradıcılığından çatmışdır. Oda bütün yaradıcılığı boyu bu ənənələri yaşatmışdır. Demək olarki, Fikrət Əmirov Üzeyir Hacıbəyov yolunu ömrü boyu davam etdirmişdir. Hətta bu yolda yeni addımlar atmışdır.Klassik musiqi janrı olan muğam dəstgahlarına müraciət edərək "simfonik muğam" janrını yaratması buna gözəl nümunədir. Bu yaradıcılıq işi ilə o dünya musiqisində heç bir analoqu olmayan yeni bir janr yaratmışdır.

O pedoqoq və ictimaii-xadim kimi də mədəniyyətimizə gözəl töhfələr vermişdir. Yaradıcılığı kimi onun ictimaii-siyasi fəaliyyətində də öz dəsti-xətti vardır. Xidmətləri dövlət tərəfindən qiymətləndirilən sənətkarın ən böyük mükafatı ona olan xalq məhəbbətidir. Çünki qazandığı bu sonsuz məhəbbətilə o əbədiyaşardır. Anadan olmasının 100 illik yubileyi ərəfəsində bəstəkar böyük məhəbbətlə, dövlət qayğısı ilə xatırlanır.Cənab İlham Əliyevin sərəncamı ilə Fikrət Əmirovun 100 illik yubileyinin təntənəli keçirilməsi haqqında sərəncam imzalanmışdır. Sərəncamda deyilir:

**Fikrət Əmirovun 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan musiqi mədəniyyətinin inkişafında xüsusi xidmətləri olan görkəmli bəstəkar Fikrət Əmirovun 100 illik yubileyinin keçirilməsini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Bəstəkarlar İttifaqının təkliflərini nəzərə almaqla, Fikrət Əmirovun 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 15 mart 2022-ci il**

## Keciriləcək tədbirlər:

Azərbaycan musiqi mədəniyyətində simfonik muğamların özünəməxsus yeri vardır. Professional bəstəkar yaradıcılığında bu janr ilk dəfə Azərbaycanda yaradılmışdır. Simfonik muğam janrını ilk dəfə böyük Azərbaycan bəstəkarı Fikrət Əmirov qələmə almışdır. Onun 1948-ci ildə yazdığı "Şur" və "Kürd ovşarı" ilk simfonik muğamlardır. Simfonik muğamları yazarkən F. Əmirova böyük köməklik göstərən görkəmli muğam biliciləri, SSRİ və Azərbaycan Respublikasının xalq artisti Bülbül, xalq artistləri Qurban Pirimov, xanəndə Seyid Şuşiniski olmuşlur. Ondan bir il sonra dahi dirijor görkəmli bəstəkar Niyazidə bu janra müraciət edərək "Rast" simfonik muğamını yazmışdır. F. Əmirovun "Şur",və "Kürd Ovşarı" simfonik.

Bu münasibətlə respublikamızın müxtəlif təhsil ocaqlarında, liseylərdə, kitabxanalarda, gimnaziyalarda yubiley tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur. Bu mədəniyyət və təhsil ocaqları sırasında Firidun bəy Köçərli adına Respublika uşaq kitabxanasınında xüsusi yeri vardır. Uşaq kitabxanası olaraq yubilyarı gənclərə tanıtmaq üçün müəllifin əsərlərindən ibarət xüsusi tədbirlər hazırlayacağıq. Bunların arasında sərgilər mühüm yer tutur. Kitabxanalarda sərgilərin təşkili əyani təbliğat formasının ən geniş yayılmış üsuludur. Əsasən həcminə, tərtibatına görə bir-birindən fərqlənən sərgilər, baxılmaq üçün təşkil olunduğundan, onun tərtibi məsələlərinin böyük əhəmiyyəti vardır. Burada mətn və təsvir materialları bir-birini tamamlamalıdır. Hazırlsnmış sərgilər müxtəlif başlıqlarda ola bilər: "Fikrət Əmirov – 100", "Böyük Azərbaycan bəstəkarı", "Dünya şöhrətli bəstəkarımız", "Mənəvi sərvətimiz - Fikrət Əmirov","Azərbaycan musiqisinin korifeyi – Fikrət Əmirov","Ustad sənətkar - Fikrət Əmirov", "Zəmanəsinin böyük bəstəkarı", "Dahi bəstəkarın düşüncəsi", "Azərbaycan musiqisinin iftixarı", "Dahilər ölmür", "Çoxcəhətli istedad", "Musiqimizin böyük dayağı – Fikrət Əmirov" və s

# Sərgi:




EXXON
Musiqi
səmimiyyət məbədi
UŞAQ
Ayna ENSİKLOPEDİYASI


PAŞA Bank
FİKRƏT ƏMİROV
SİMFONİK MUĞAMLAR


Səadət Təhmirazqızı
Fikrət Əmirov


Azərbaycan musiqi dünyası
Azerbaijan music world


AZƏRBAYCANIN GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏRİ
FİKRƏT ƏMİROV
BİBLİOQRAFİYA


Ramiz Zöhrabov
Azərbaycan muğamları

https://drive.google.com/file/d/1HfJKZY-nlKQJLMaLmY0Kmn49RYZjE4WL/view

Əmirov Fikrət –Biblioqrafiya

https://drive.google.com/file/d/1f-gGQBUGXSJcJnUvKas8fF3plzLGt_ZX/view?usp=sharing

Təhmirazqızı Səadət-Fikrət Əmirov

https://drive.google.com/file/d/1oAdSjrru6e0avp7KabFHu7pvY8aOE0nU/view?usp=sharing

Fikrət Əmirov-Azərbaycan kapriççiosu

https://drive.google.com/file/d/1BHQLfSUL1x-jeI4asAXdpzSDdDfJj7MX/view?usp=sharing

Sərgidə həmçinin bəstəkarın portreti qoyulur. Onun yaradıcılığına dair qısa məlumat yerləşdirilir. Həmçinin bəstəkarın musiqi haqqında fikirlərindən də sərgidə istifadə edə bilərik.

◆ Əsl sənət fitri istedad və zəhmət tələb edir. İstedad bir aləmdir. Bu iki aləm bir-birinə qovuşanda milli sənət ümumbəşəri səviyyəsinə yüksəlir.

◆ Məni bəstəkar edən Azərbaycan tarıdır.

◆Azərbaycan musiqi alətlərinin gözü tardır.

◆Xalq məhəbbəti sənətkar üçün hər şeydir

**Fikrət Əmirov**

Bilirik ki, Fikrət Əmirov dahi Üzeyir bəyin layiqli davamçısıdır. Onun Azərbaycan musiqi mədəniyyətinin inkişafında misilsiz xidmətləri olmuşdur. Deмək olar ki, o özündən sonra gələn bütün bəstəkarlara bir örnək olmuşdur. Kitabxanada Üzeyir sənətini özünə bir məktəb saymış Fikrət Əmirovun yaradıcılığının təbliğində *"Fikrət Əmirov yaradıcıklığında Üzeyir məktəbi"*

sərgisini təşkil edə bilərik. Kitabxanada oxucuların cəlbində *onlayn xidmətin daha çox rol oynadığını, onların virtual sərgilərə daha çox maraqlı olduğunu nəzərə alaraq "Fikrət Əmirov yaradıcıklığında Üzeyir məktəbi"adlı sərgini virtual şəkildə də təşkil edirik. Sərgi kitabxananın* **clb.az** *saytında, facebook, instaqram və b. elektron səhifələrində yerləşdirilir. Sərgidə Fikrət Əmirovun Üzeyir Hacıbəyov haqqında söylədiyi fikirlərdən istifadə edə, bəstəkarın onun ölümünə yazdığı "Elegiya" haqqında məlumat verə, Azərbaycan müəllimi qəzetində yazdığı"Üzeyir məktəbi" adlı məqaləsindən danışa bilərik. Haqqında yazılmış kitablarından istifadə edə bilərik.*

**Fikrət Əmirov musiqisi kinofilmlərdə:**

*Fikrət Əmirov bir çox kinofilmlərə və teatr tamaşalarına musiqi bəstələmişdir. Bəstəkarın musiqi bəstələdiyi teatr tamaşalarına aiddir: İlyas Əfəndiyevin "İşıqlı yollar" əsəri – 1947-ci il, Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan ittifaq" əsəri – 1950-ci il, Cəfər Cabbarlının "1905-ci ildə" əsəri – 1955-ci il, Hüseyn Cavidin "Şeyx Sənan" əsəri – 1956-cı il, Mehdi Hüseynin "Cavanşir" əsəri – 1957-ci il, İlyas Əfəndiyevin "Sən həmişə mənimləsən" əsəri – 1964-cü il, Mirzə İbrahimovun "Közərən ocaqlar" əsəri – 1967-ci il. Bu tamaşalar Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının səhnəsində tamaşaya qoyulmuşdur. Bunlardan başqa, Fikrət Əmirov Azərbaycan radiosunda səhnələşdirilən pyeslərə də musiqi bəstələyib. Bunlar Xalq yazıçısı Süleyman Rəhimovun "Saçlı" və "Şamo" əsərləridir.* Bəstəkarın ən məşhur mahnılarından biri də Hüseyn Cavidin "Şeyx Sənan" dramına yazdığı "*Kor ərəbin"* mahnısıdır. Bu mahnı bir çox illərdir ki, müstəqil mahnı kimi konsertlərdə ifa edilir. Mahnı özündə qədim nəğmələrin intonasiya xüsusiyyəti ilə faciəvi ifadəliliyi birləşdirir. Musiqidəki intonasiya getdikcə inkişaf edərək

muğam qanunauyğunluqlarından irəli gələn pilləli yüksəliş prinsipi ilə kulminasiyanı yaradır və başqa əsərlərində olduğu kimi Əmirovun üslub xüsusiyyətini özündə daşıyır. Xalq ifaçılıq təcrübəsində olduğu kimi bu melodiya öz xarakteri, ifadə quruluşu baxımından improvizasiyalıdır, zəngin melizmlərlə bəzədilmişdir.
Hüseyn Cavidin lirik-romantik səpkili şeiri Fikrət Əmirovun dramatik-faciəvi musiqisində öz əksini tapır. Şeir əruz vəzninin həzəc bəhrindədir. Melodiya "Şur" muğamının "Hicaz" şöbəsinin intonasiyaları üzərində qurulmuşdur. Bu mahnı hal-hazırda da müğənnilərin repertuarında tez-tez eşidilir.
Bəstəkarın Mehdi Hüseynin "Cavanşir" pyesinə yazdığı musiqi də əsərin səhnə həyatı üçün xüsusi əhəmiyyət kəsb edir. Bu pyesdəki məşhur mahnılardan biri də "Reyhan" mahnısıdır. 1950-ci illərdə yaradılan bu mahnı ancaq teatr tamaşalarında səsləndirilmişdir. 1960-cı illərdə isə mahnı SSRİ Xalq Artisti Zeynəb Xanlarova bu mahnının ən məşhur ifaçısıdır. O, bir çox ölkələrdə bu mahnını öz repertuarına daxil edərək Azərbaycan musiqisini təbliğ etmişdir.

Musiqi : Fikrət Əmirov (1922-1984)
Sözləri : Tələt Əyyubov (1924-1992)

Dağlar qızı Reyhan Reyhan
Parlaqdır ulduzun Reyhan Reyhan
Aləm sənə heyran heyran heyran

Nəqərat:
Nə qəşəngsən, ay qız!
Gül-çiçəksen, ay qız!
Birdanəsən, ay qız!
Dürdanəsən, ay qız!

Gözəllər gözəli, Reyhan, Reyhan!
Sevdamın əzəli, Reyhan, Reyhan!

Aləm sənə heyran, heyran, heyran!

Bəstəkarın daha bir mahnısı da mövcuddur ki, bu “Mən səni araram” mahnısıdır. Mahnının sözləri Tələt Əyyubova aiddir. Mahnının ilkin variantı Mehdi Hüseynin “Cavanşir” pyesinə yazılmışdır. Fikrət Əmirov sonralar bu mahnını 1977-ci ildə çap olunan “20 mahnı” məcmuəsinə daxil etmişdir.

Öz emosional ifadə tərzinə görə, “Gülüm” qəzəlinə yaxın olan bu mahnı uzun illərdir ki,ifaçılar tərəfindən ifa edilir. Xalq mahnıları üçün səciyyəvi olan lirik sadəliyi və təbiiliyi yaxın bu melodiya olduqca ifadəlidir.Mahnı Bayatı-Şiraz ladında səslənərək geniş melodiya bütövlüyü ilə, seçilir. Mahnıda mətnə qayğı ilə yanaşan bəstəkar musiqi ilə sözün vəhdətini yarada bilmişdir.

Fikrət Əmirovun musiqisi yazıçı Süleyman Rəhimovun əsərlərində də öz təcəssümünü tapmışdır. Belə ki, Süleyman Rəhimovun “Saçlı” və “Şamo” romanları əsasında hazırlanan tamaşaların musiqisini Fikrət Əmirov yazmışdır. Romansda Rüxsarənin mahnısı çox kədərli notlardan ibarət olub Burada, hətta “Şüştər” muğamının intonasiyaları da səslənir. Yazıçının "Şamo" əsərində əsas musiqi mahur üzərində səslənir. Bundan başqa Şamonun oxuduğu “Ay Qəmər” mahnısı da onların saf məhəbbətindən xəbər verir. Mahnı şur ladındadır. Bu mahnının melodiyasında aşıq musiqisinə xas olan elementlər mövcuddur. Tamaşa musiqi dilində mahur, şur və segah ladları üstündür. Fikrət Əmirovun musiqisi bir neçə kinofilmlərdə də xüsusi əhəmiyyət kəsb edir. Bəstəkarın kino sahəsində ilk işi 1960-cı ildə Mehdi Hüseynin ssenarisi əsasında rejissor Ağarza Quliyevin çəkdiyi “Səhər” filmidir.

“Səhər” filmində məhəbbət mövzusu geniş yer tutur. Aslan ilə Sevdanın saf məhəbbəti bütün məhrumiyyətlərə qalib gəlir. Qəhrəmanın sonsuz məhəbbət mövzusu Aslanın mahnısında öz ifadəsini tapır, hansı ki, bu mahnı da film boyu səslənir. Şüştər ladında yazılan mahnı öz melodik çalarları ilə lirik hissləri, ritmik xüsusiyyətləri ilə də qəhrəmanlığı ifadə edir. Mahnı da şüştər

ladının səs düzümünün xüsusiyyətlərindən də geniş istifadə olunur. Məsələn, nəqarət hissəsində "Tərkib" şöbəsinə istinad olunur. "Səhər" kinofilmindən "Aslanın mahnısı" ifaçıların repertuarına daxil olaraq müstəqil mahnı kimi də oxunur.

1962-ci ildə Xalq yazıçısı Mirzə İbrahimovun ssenarisi əsasında rejissor Həbib İsmayılov ekranlaşdırdığı "Böyük dayaq" filmində də Fikrət Əmirovun musiqisi bədii məzmuna rəng qatır, hadisələrin gedişini daha da dolğunlaşdırır. Burada da məhəbbət mövzusuna geniş yer verilir. Maya ilə Qaraşın sevgisi lirik melodiyalarla verilir. Saf məhəbbəti əks etdirən "Gecə keçdi" mahnısı Mayanın ifasında filmə əsl məhəbbət ovqatı gətirir. Mahnı melodiyası ilə, özündən sonra gələn hadisələrlə təzad yaradır. "Gecə keçdi" mahnısı şur ladında yazılıb. Sözləri Teymur Elçinə aid olan bu mahnı bəstəkarın "20 mahnı" məcmuəsinə də daxil edilib.
Fikrət Əmirovun musiqi bəstələdiyi digər kinofilmlər bunlardır: 1966-cı ildə Leonid Aqronoviçin ssenarisi əsasında rejissor Ramiz Əsgərovun çəkdiyi – "Yaşamaq gözəldir, qardaşım!", 1968-ci ildə Bayram Bayramovun ssenarisi əsasında rejissorlar Tofiq Tağızadə və Ağarza Quliyevin çəkdikləri – "Mən ki, gözəl deyildim", 1970-ci ildə bəstəkarın "Sevil" operası əsasında Vladimir Qorikkerin çəkdiyi "Sevil", 1974-cü ildə Rüstəm İbrahimbəyovun ssenarisi əsasında rejissor Gülbəniz Əzimzadənin çəkdiyi "Nəğmə dərsi", 1975-ci ildə Bayram Bayramovun ssenarisi əsasında Ənvər Əbluc və Əbdül Mahmudovun çəkdiyi Firəngiz kinofilmləri. https://az.wikipedia.org/wiki/B%C3%B6y%C3%BCk_dayaq_(film,_1962)

https://az.wikipedia.org/wiki/S%C9%99h%C9%99r_(film,_1960)





**Biblioqrafik icmal:**

Biblioqrafik icmallar kitabxanada geniş yayılmış şifahi təbliğat üsullarından biridir. İcmallar tövsiyə xaraktrerli olub müxtəlif mövzu üzrə və kitab  icmalından ibarətdir. Biblioqrafik icmalları keçirməkdə məqsəd oxucuları müvafiq bədii ədəbiyyatla, mövzu ilə  tanış etmək və müvafiq kitablarda mövzunu təbliğ etməkdir. etməkdir. Kitabxanada yubilyarın yüz illik yubileyi ərəfəsində yazdığı “Sevil” operasının icmalını təşkil edə bilərik”




Əsər haqqında ətraflı məlumatı Səadət Təhmirazqızının “Fikrət Əmirov” kitabında oxuculara təqdim edə bilərik. Kitab ümumiyyətlə Azərbaycan bəstəkarının irsindəndən bəhs edir. Burada sənətkarın həyatı, yaradıcılığı, əsərlərinin təhlili, özünün xatirələri, dünya şöhrətli musiqiçilərin onun haqqında fikirləri geniş şəkildə işıqlandırılır. Bu kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulub. Kitabın ilk səhifəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bəstəkarın abidəsinin 2011-ci ildə

açılışındakı çıxışı verilmişdir. Müəllifin kitaba verdiyib ön sözdə bəstəkar haqqında maraqlı fikirlər əldə edə bilərsiniz.
Müəllif tərəfindən yazılmış ön söz Fikrət Əmirovun bu fikirləri ilə başlayır.
*“ Əsl sənət fitri istedad və zəhmət tələb edir. İstedad bir aləmdir, zəhmət bir aləm. Bu iki aləm bir-birinə qovuşanda milli sənət ümumbəşəri sənət səviyyəsinə yüksəlir.”*
Monoqrafiya bir neçə bölmədən ibarət olub oxuculara hər bölmədə qısa məlumat verilir.
Birinci bölmə *“Sənətə gələn yollar”* adlanır. Burada Burada Fikrət Əmirovun doğulub boya –başa çatdığı mühitdən bəhs edilir.
*“Fikrət Əmirov və Üzeyir Hacıbəyli irsi”* adlanan ikinci bölmədə onun öz müəllimi Üzeyir bəy haqqında fikirləri, məqalələri və ona həsr etdiyi “Elegiya” sından danışılır.
*“Fikrət Əmirov və xalq musiqisi”* adlanan bölmədə isə bəstəkarın xalq musiqisi haqqında düşüncələri, bu mövzu ilə bağlı qələmə aldığı əsərləri verilir.
Növbəti bölmə isə *“Sevil”* operası haqqındadır. Burada operanın qısa məzmunu musiqi dili ilə verilib.
Kitabın beşinci bölməsi olan *“Fikrət Əmirovun baletləri”* bölməsində “Nizami”, “Nəsimi” dastanı, və “Şur” baletlərindən söhbət açılır.
*“Fikrət Əmirov və simfonizm”* bölməsində əsasən *“Nizami”* simfoniyasından danışılır.
*“Fikrət Əmirovun yaradıcılığında Azərbaycan mövzusu”*adlı bölmədə isə doğma Vətəni tərənnüm edən “Azərbaycan” suitası”,“Azərbaycan kapriççosu” və “Azərbaycan qravürlərindən” bəhs edilir.
*“Bəstəkarın vokal əsərləri”* bölməsində bir neçə mahnıları və romansları təhlil edilir, onların not yazıları təqdim edilir. Bu bölməyə bir neçə uşaq mahnıları da daxil edilmişdir.

“Sevil” operası bəstəkar Fikrət Əmirovun demək olarki böyük uğuru hesab edilir. Ən dəyərlisi odur ki, operada müəllif Azərbaycan xalq melodiyalarına istinad edərək dünya və rus opera klassikalarının zəngin opera formaları və musiqi-dramatik priyomlarından cəsarətlə istifadə etmişdir.

**Şövkət Məmmədova,**
**Xalq artisti**
**Sevil operası:**
**İcmal:**

Oxucularla keçirilən Sevil operası haqqında icmalı Xalq artisti Şövkət Məmmədovanın əsər haqqında söylədiyi bu fikirlərlə başlayırıq**.** Oxucularla icmalın maraqlı olması üçün monitorda operadan bir parça “Sevilin ariyası” səslənir.

https://www.youtube.com/watch?v=Fn0P68qVHP8\




Əsər-1949-1952-ci illərdə yazılmış lirik-psixoloji dram operasıdır Operanın musiqisi Fikrət Əmirov, librettosu isə Cəfər Cabbarlının "Sevil" pyesi əsasında Tələt Əyyubov tərəfindən yazılmışdır. Operanın premyerası 25 dekabr 1953-cü il tarixində Azərbaycan Dövlət Opera və Balet Teatrında baş tutmuşdur. Opera 1957-ci ilin nəşrində 4 pərdəli, 1962-ci ilin nəşrində 3 pərdəli, 1967-ci ilin nəşrində 3 pərdəli, 1976-cı ilin nəşrində 2 pərdəli, 1982-ci ilin nəşrində 3 pərdəli, 1987-ci ilin nəşrində 3 pərdəli olmuşdur. Əsər ilkin olaraq 4 pərdədə yazılmış, sonradan isə müəllif tərəfindən redaktə edilərək 3 və 2 pərdəli variantlara uyğunlaşdırılmışdır.

Müasir mövzuya müraciət edən bəstəkar əsərlə opera sənətinə şəhər məişətini, yeni ifadə vasitələri tələb edən yeni mühiti gətirmişdir. Fikrət Əmirovun yaradıcılığının əsas ifadə vasitəsi olan melodiya, operanın musiqisində emosional başlanğıc rolunu oynayır. Opera musiqi dolğunluğu, zəngin harmonik dili, orkestr rəngarəngliyi, simfonikləşmə tendensiyaları ilə diqqəti cəlb edir. Bəstəkar operada müxtəlif musiqi formalarını – ariya, ariozo, reçetativlər, ansambl və xor epizodlarını böyük sərbəstlik və ustalıqla istifadə etmişdir. Operanın musiqisində mühüm rol oynayan leytmotivlər qəhrəmanların səviyyəsində böyük əhəmiyyət kəsb edir.
Opera müasir mövzuda lirik-psixoloji janrda yazılmış ilk Azərbaycan operası olmaqla yanaşı, respublikada opera sənətinin inkişafında mühüm mərhələ olmuşdur və bəstəkarın yenilikçi fikirlərini bir daha nümayiş etdirmişdir
Əsəri yazarkən bəstəkar azərbaycanlı dramaturq Cəfər Cabbarlının "Sevil" pyesindən təsirlənmişdir. Cəfər Cabbarlının "Sevil" dramı 1928-ci ildə tamaşaya qoyulmuş və bədii məzmununun aktuallığına görə şöhrət qazanmışdır.
1952-ci ildə belə bir mövzuya müraciət etməsi bəstəkar Fikrət Əmirovun öz marağının, tarixə münasibətinin və Cabbarlı yaradıcılığına məhəbbətinin ifadəsi olmuşdur.
Fikrət Əmirov Cəfər Cabbarlının yaradıcılığını çox yüksək qiymətləndirərək onun irsinə çox böyük maraq bəsləyirdi.
O, yazırdı ki, "Cabbarlı pyeslərinə baxarkən onun oradakı novator cəsarətinə heyrət etməyə bilmirsən. Hiss edirsən ki, "Sevil" operasını yazan sənətkar heç də "Aydın" əsərini yazan deyil, daha müdrik, daha uzağı görən, daha yeni sənətkardır. Cəfər Cabbarlı xalqının və əsrinin oğlu olduğu üçündür ki, bütün xalqlara və əsrlərə doğmadır.
Mən Cabbarlının əsərlərinə vurğunam. Ancaq onun ən çox xoşuma gələn "Sevil" operasına olan məhəbbət onu mənim tərcümeyi-halıma yazmışdır. Mən "Sevil" operasını əzbərləyə-əzbərləyə ona

musiqi yazmışam və hər gün də Cəfər Cabbarlının qarşısında hesabat vermişəm. Yəni hər musiqi parçasından sonra "Görəsən bu Cəfərin xoşuna gələrdimi?" deyərək öz-özümə fikirləşmişəm."
1953-cü ildə Cəfər Cabbarlı yaradıcılığına nüraciət etməsi bəstəkarın marağının, Cəfər Cabbarlı yaradıcılığına məhəbbətinin bir göstəricisidir. 1983-cü ildə "Musiqi aləmində" kitabında bəstəkarın Cəfər Cabbarlıya həsr etdiyi "Xalqının, əsrinin oğlu adlı məqaləsində" o Cəfər Cabbarlı yaradıcılığını belə yüksək qiyməıtləndirmişdir.
1950-ci ildə dördhissəli "Azərbaycan" simfonik süitasını bəstələyən Fikrət Əmirov onun ardınca müasir mövzuda milli musiqi tariximizə ilk milli lirik opera kimi daxil olan "Sevil" operasını qələmə almışdır. İlk dəfə 8 oktyabr 1953-cü ildə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında baxış keçirilən opera, doğma vətəni tərənnüm edən "Azərbaycan kapriççiosu", "Azərbaycan süitası"və "Azərbaycan qravürləri" bəstəkar irsinin dəyərli səhifələridir.
Fikrət Əmirovun musiqi yaradıcılığının təbliğində ən yaxşı tədbirlərdən biridə sual-cavab gecələridirdır.
İcmalın daha yaddaqlan olması üçün iştirakçılarla icmal bitdikdən sonra sual-cavab etmək olar.
Bəstəkar haqqında sual – cavab gecələrinin daha maraqlı sualların daha dolğun və maraqlı olması üçün kitabxanaçı musiqişünaslarla məsləhətləşməli onun haqqında yazılara müraciət etməlidir.

✐ Fikrət Əmirovun yaradıcı irsi haqqında nə bilirsiniz?

---

✐ Fikrət Əmirov opera üzərində işə neçənci ildən başlamışdır?

1949-cu ildən

✐ Sevil operasının ilk tamaşası neçənci ildə olmuşdur?

1953-cü ilin dekabrından

✐ Bəstəkar Niyazinin dirijorluq etdiyi Sevilin üçüncü redaktəsi neçənci ildə olmuşdur?

1959-cu ilin martında

✐ Sonuncu dəfə tam yeni redaktəsi ilə 1998-ci ildə opera harada tamaşaya qoyulur?

M.F.Axundov adına Opera və Balet teatrında .

✐ Fikrət Əmirov hansı bəstəkarın yaradıcılığını özünə məktəb sayırdı?

Üzeyir Hacıbəyov

✐ Bəstəkarın uşaq mahnılarından hansıları dinləmisiniz?

✐ Bəstəkarın son baleti hansıdır?

Nizami baleti

## Bəstəkarın xatirəsinin əbədiləşdirilməsi:



Dövlət tərəfindən hər zaman qayğı göstərilən Fikrət Əmirovun xatirəsi əbədiləşdirilərək **b**əstəkarın adına Bakıda və Gəncədə küçə salınmış, Bakıda bəstəkarın xatirə lövhəsi qoyulmuş, Gəncə şəhərində Fikrət Əmirov parkı salınmışdır. Üzeyir Hacıbəyov tərəfindən yaradılmış Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblına Fikrət Əmirovun adı verilmişdir.

Gəncənin böyük səhnələrindən biri Dövlət Filarmoniyasıda Fikrət Əmirovun adınadır. Fəaliyyəti dövründə Fikrət Əmirov bir müddət burada çalışmışdır. Fileni bina inşa olunduqdan sonra filarmoniyaya bəstəkarın adı verilib. Burada, eyni zamanda, 1100 nəfərlik konsert və 300 yerlik iclas zalları, 10 loja və 1 VİP loja vardır. Binanın üçüncü mərtəbəsinin eyvanında Üzeyir Hacıbəyovun, Fikrət Əmirovun, Qara Qarayevin, Niyazinin və Arif Məlikovun heykəlləri qoyulub.

Fikrət Əmirov adına Gəncə şəhər 1 saylı musiqi məktəbi Nizami küçəsində yerləşir. Məktəb 1923-cü ildən fəaliyyət göstərir. Məktəbdə 4 şöbə fəaliyyət göstərir: fortepiano şöbəsi, simli və nəfəsli alətlər şöbəsi, xalq çalğı alətləri və nəzəriyyə şöbəsi. Məktəbdə fortepiano, skripka, tar, kamança, qarmon, nağara, səs-muğam, vokal, kanon, klarnet, truba, saz ixtisasları mövcuddur.
Fikrət Əmirov adına Sumqayıtda musiqi məktəbi fəaliyyət göstərir. Məktəb 1991-ci ildə 5№-li Uşaq Musiqi Məktəbi kimi fəaliyyətə başlamışdır. 1992-ci ildə Sumqayıt şəhəri Xalq Deputatları Sovetinin qərarı ilə məktəbə Fikrət Əmirovun adı verilmişdir.

Məktəbdə fortepiano, nağara, fleyta, klarnet, xanəndəlik, violin, tar, kamança, balaban, kanon, saz, qarmon ixtisasları vardır.[210]

**Fikrət Əmirovun Bakı şəhərindəki heykəli**

Fikrət Əmirov adına Binəqədi rayonunda 6 saylı incəsənət məktəbi fəaliyyət göstərir. Məktəb 6№-li İncəsənət Məktəbi kimi fəaliyyətə başlamışdır. Daha sonra məktəbə Fikrət Əmirovun adı verilmişdir. Məktəbdə 400-dən çox şagird incəsənətin müxtəlif sahələri üzrə təhsil alır. Məktəb 50 ildən çoxdur fəaliyyət göstərir. Məktəbdə fortepiano, nağara, fleyta, klarnet, xanəndəlik, violin, tar, kamança, balaban, kanon, saz, qarmon ixtisasları vardır. Bəstəkarın qızı Sevil Əmirovanın rəhbərliyi altında Belçikada "Fikrət Əmirov Beynəlxalq Assosiasiyası" yaradılmışdır. Bu assosiasiyanın rəhbəri və həmtəsisçisi Sevil Əmirovadır.

2012-ci ilin sentyabr ayının 19-da Bakıda Fikrət Əmirov küçəsində görkəmli bəstəkarın xatirəsinə ucaldılmış abidənin açılışı olub. Müəllifi əməkdar rəssam Namiq Dadaşov olan tuncdan hazırlanmış abidənin ümumi hündürlüyü 3,6 metrdir. Abidənin ətrafında park salınmış, abadlıq işləri aparılmışdır.

Rəssam Tahir Salahov tərəfindən 1967-ci ildə "Fikrət Əmirovun portreti" işlənmişdir. Hal-hazırda bu əsər Azərbaycan Milli İncəsənət Muzeyində sərgilənir.

1985-ci ildə “Azərbaycanfilm” kinostudiyasının rəhbərliyi altında Cahangir Zeynallının rejissorluğu, Ayaz Vəfalının ssenari müəllifliyi ilə “Fikrət Əmirov” qısametrajlı sənədli filmi ekranlaşdırılmışdır. Filmdə bəstəkarın ölümündən bir qədər əvvəl çəkilmiş kinoxronikadan, fotoşəkillərdən istifadə edilmişdir. Kino əsərinə “Sevil” operasından, “Min bir gecə” baletindən ayrı-ayrı səhnələr, Rəşid Behbudovun, Nəbi Xəzrinin, Tixon Xrennikovun xatirələri daxil edilmişdir.

## Bəstəkar haqqında deyilmiş fikirlər:

Fikrət Əmirovun yüksək sənətkarlıqla bəstələdiyi əsərlər dünyanın məşhur dirijorlarının repertuarına daxil olmuş, bir çox xarici ölkələrin konsert salonlarında səslənərək Azərbaycan musiqi sənətinə böyük şöhrət gətirmişdir.

“Respublikaya rəhbərliyə gəlməzdən əvvəl də Fikrət Əmirovla çox yaxın dostluq etmişəm. Təsəvvür edin, 1969-cu ildə respublikaya rəhbərliyə başlamışdım. Əgər 1953-cü ildən Fikrət Əmirovla yaxın əlaqədə idimsə, ilk tamaşasında iştirak edib onu təbrik etmişdimsə, bu da bizim əlaqələrimizi göstərir. Fikrət Əmirov bütün ömrü, bütün yaradıcılığı ilə Azərbaycana xidmət edirdi. Onda çox böyük vətənpərvərlik duyğuları var idi.

**Ulu öndər Heydər Əliyev**

Azərbaycan musiqi sənəti tarixinə parlaq səhifələr yazmış Fikrət Əmirovun musiqinin ən müxtəlif janrlarını əhatə edən çoxsaylı əsərləri xalqımızın mədəni sərvətlər xəzinəsinin qızıl fondunda xüsusi yer tutur.

Bilirsiniz ki, ulu öndər Heydər Əliyev Fikrət Əmirovun fəaliyyətinə onun şəxsiyyətinə böyük hörmətlə yanaşırdı.Onları dostluq əlaqələri bağlayırdı. Bəzi hallarda onların görüşlərini məndə kənardan müşahidə edirdim və görürdüm ki, bu insanlar arasında nə qədər səmimi münasibət var. O vaxt Sovet İttifaqının ən böyük mükafatı – “Sosialist Əməyi Qəhrəmanı” adı da Fikrət Əmirova Sovet dövləti tərəfindən Heydər Əliyevin təşəbbüsü ilə verilmişdir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Musiqili Komediya Teatrının açılışı müvəffəqiyyətli işdir, Fikrətin müvəffəqiyyətidir. Fikrətin müvəffəqiyyəti isə sevindiricidir.

**Üzeyir Hacıbəyov,**
**bəstəkar**

Melodiya Fikrət Əmirov musiqisinin canıdır.

**D. M. Şostakoviç**

Fikrət Əmirov nəinki respublikamızın, həm də bütün ölkəmizin görkəmli, ən istedadlı bəstəkarlarından biridir. Onun adı Sovet İttifaqının hüdudlarından uzaqlarda da məşhurdur.

**Qara Qarayev,**
**SSR Xalq artisti, bəstəkar**

"Şur" və "Kürd ovşarı" simfonik muğamlarının ifası respublikamızın musiqi həyatında görkəmli hadisədir. Fikrət Əmirovun yaradıcılıq işinin müvəffəqiyyəti ondadır ki, o, xalq dühasının əsrlərlə yaratdığı bütün xüsusiyyətləri saxlamaqla bərabər muğamlara yeni məzmun verə bilmişdir. Ölməz musiqi poemaları onun təfsirində yeni tərzdə səslənir

**Qara Qarayev,**
**SSR Xalq artisti, bəstəkar**

Azərbaycan xalq musiqisinə yaxşı bələd olan Fikrət Əmirovun müvəffəqiyyəti çox böyükdür. "Sevil" operası müəllifin tükənməz xalq muğamlarımızın xəzinəsindən aldığı və məharətlə istifadə etdiyi cazibəli melodiyalarla zəngindir. Xalq musiqisi opera üçün çox zəngin musiqi materialıolmuşdur.

**Səməd Vurğun,**
**Xalq şairi**

Fikrət Əmirov doğma torpaqdan start götürmüş, zirvədən-zirvəyə ucalmış Sovet Azərbaycanının bəstəkarlıq şöhrətini qitədən-qitəyə yaymışdır.

**Mirzə İbrahimov,**
**Xalq yazıçısı**

İlk növbədə bəstəkarın fövqəladə qiymətli keyfiyyətini qeyd etmək istərdim – o, səhnə xüsusiyyətlərini çox gözəl duyur, buda opera yazan bəstəkar üçün çox önəmlidir. Xüsusən operanın dramatik səhnələrində Əmirovun musiqisi böyük ifadə gücünə malikdir.

**Dmitri Şostakoviç,**
**bəstəkar**

Böyük və unudulmaz bəstəkarımız öz istedadının sayəsində sənətdə elə bir zirvənin sahibi olub ki, onun musiqisi yurdumuzun dağı, daşı, çayı, dənizi kimi əbədidir.

**Flora Xəlilzadə,**
**Jurnalist**

Böyük bəstəkarımız Fikrət Əmirovun ürəkləri riqqətə gətirən musiqisi, qəlboxşayan melodiyaları, yüksək bədii səviyyəli müxtəlif janrlı əsərləri onun ömrünü əbədi edəcək, sorağını əsrlərdən-əsrlərə aparacaqdır.

**Ramiz Zöhrabov,**
**Əməkdar incəsənət xadimi, professor**

Gözəllik və ağıl, dərinlik və orijinallıq, məna və aydınlıq – Fikrət Əmirov musiqisinin ruhunu, canını təşkil edən əsas keyfiyyətlərdəndir.

**Əliağa Kürçaylı,**

**Xalq şairi**

Mən bulaq gördüm. Saf və şəffaf bir bulaq. Əmirovun mahnıları saf və təravətlidir. Mən çinar gördüm. Başı göyləri yaran, kökləri torpaqda dayanan bir çinar. Bu gün Əmirovun sənət çinarının göylərə ucalması onun doğma torpağa bağlılığıdır.

**Nəbi Xəzri,**
**Xalq şairi**

"Sevil" operası, şübhəsiz, bəstəkar Fikrət Əmirovun Böyük uğurudur. Ən dəyərlisi odur ki, müəllif Azərbaycan xalq melodiyalarına istinad edərək dünya və rus opera klassikalarını zəngin opera formaları və musiqi-dramatik priyomlarından cəsarətlə istifadə etmişdir.

**Şövkət Məmmədova,**
**Xalq artisti**

Tanrısal, fitrətli, milli və bəşəri təranəli, dünya şöhrətli Fikrət Əmirov musiqisinin həzzinə varmaq su içimi kimi asan, ondan yazmaq isə çətindir. Xüsusən əcnəbi yazarların yazdıqlarına, dediklərinə nisbətdə. Onun "Gülüstan - Bayatı Şiraz"ı Amerikada səslənərkən bir amerikalı jurnalistin yazdığı kimi:
"Bu ecazkar əsər səslənərkən bizim cavan Amerika salonu qocaman şərq xəyalətinə dalmışdır."

# Uşaqların sevimli bəstəkarı- Fikrət Əmirov




Musiqi mədəniyyəti xəzinəmizi əsərləri ilə gözəlləşdirən sənətkarlardan biri də böyük bəstəkar Fikrət Əmirov olub. Yaradıcılığında uşaq musiqisi əhəmiyyətli yer tutan görkəmli sənətkar balacalar üçündə bir-birindən gözəl mahnılar yazıb. Çoxşaxəli yaradıcılığa malik olan bəstəkarın uşaqlar üçün yazdığı əsərlər hər zaman balacaların diqqətini cəlb edibdir. Bunlardan "Bizim həyət", "Qatar", "Quzum", "Tənbəl", "Bahar gəlir" mahnılarını hamımız eşitmişik. Bu mahnıları uşaqlarımız hələdə həvəslə oxuyurlar:

**Uçdu göylərə**
**Bizim peykimiz.**
**Söylədi Yerə:**
**-Yol gedirik biz .**
**Bip bip,  bip-bip**
**Göylər min rəngdir.**
**Burda ulduzlar**
**Gör nə qəşəngdir.**

**https://www.youtube.com/watch?v=f_VtSoX5yuQ**
**Quşlar https://www.youtube.com/watch?v=JMDAg6Bb4ZM**
**Qatar gəlirhttps://www.youtube.com/watch?v=AF52nkOxhzQ**
**Bizim həyəthttps://www.youtube.com/watch?v=DQR-AStpgDA**
**Quzumhttps://www.youtube.com/watch?v=mcd70vPj2n8**

**“Mənim sevimli mahnım” adlı mahnı müsabiqəsi**

Kitabxanada uşaqlarla bu mahnılardan ibarət *“Mənim sevimli mahnım”* adlı mahnı müsabiqəsi keçirə bilərik. Kitabxanada müsabiqəyə hazırlıq işləri başlayır. Kitabxanaçı musiqi müəllimlərilə birlikdə uşaqlara mahnıların öyrənməsinə kömək edir, onlara mahnıların tapılmasında yardımçı olur. Müsabiqənin keçiriləcəyi yer və gün təyin edilir. Kitabxananın internet səhifəsində, facebook, instaqram və b.sosial şəbəkələrində müsabiqənin keçiriləcəyi gün haqqında elan yerləşdirilir. Seçilmiş qalib təyin edilmiş münsiflər heyəti tərəfindən elan edilir .

**Ədəbi-bədii gecə:**

Kitabxanada yubilyarın musiqilərindən ibarət *“Musiqimizin böyük dayağı”* adlı ədəbi-bədii gecə keçirə bilərik. Gecənin dolğun və maraqlı olması üçün bəstəkarın həyat və yaradıcılığından bəhs edən kitab sərgisi və eyni adlı slayd hazırlayırıq. Bəstəkar haqqnda biliklərini oxucularla bölüşmək üçün müəllimlər, Fikrət Əmirov yaradıcılığı haqqında araşdırmaçıları tələbələri tədbirə dəvət edirik. Aparıcılar tədbiri açıq elan etdikdən sonra qonaqlara *“Musiqimizin böyük dayağı”*adlı videoçarx nümayiş edilir. Yubilyar haqqında video çarxı izlədikdən sonra tədbiri açılır.

**Aparıcı:** Əsası dahi Üzeyir Hacıbəyov tərəfindən qoyulmuş bəstəkarlıq məktəbinin görkəmli nümayəndələrindən biridir Fikrət Əmirov. O, ona görə o, milli professional musiqimizin böyük dayağı hesab olunur ki, Fikrət Əmirov yaradıcılığı milli köklər zəmnində inkişaf edib. Bu gün bura bu böyük bəstəkarın yaradıcılığını bir daha yada salmaq üçün yığışmışıq.

**Aparıcı:**İlk əvvəl gəlin onun həyat və yaradıcılığına nəzər yetirək. Fikrət Məşədi Cəmil oğlu Əmirov 1922-ci il noyabrın 22-də məşhur musiqiçi Məşədi Cəmil Əmirovun evində dünyaya göz açmışdır. Onun milli musiqini mənimsəməsində böyüyüb, boya-başa çatdığı bu mühitin rolu böyük olmuşdur.Çünki onun böyük

musiqiçi kimi yetişməsində fitri istedadı ilə yanaşı atası Məşədi Cəmil əsas rol oynamışdır. Oğul atadan tükənməz bir xəzinəni, musiqi sərvətini mənimsəmişdir. Atadan oğula ötürülən sənət yolu yüksək zirvələr fəth edərək, böyük sənət dünyasına çevrilmişdir. Buda Fikrət Əmirov dünyasıdır

**Aparıcı:** F.Əmirov musiqisinin janr dairəsi geniş olub yaradıcılığında simfonik musiqi janrı xüsusi rol oynamışdır. Bir bəstəkar kimi, Fikrət Əmirov Üzeyir Hacıbəyov musiqi məktəbinin övladı və davamçısıdır.Onun yaratdığı mahnıları dillər əzbəri olub adamı yaşamağa, yaratmağa səsləyir. Daim ürəklərdə səslənir. “Simfonik muğamları”, “Sevili”, “Min bir gecəsi”musiqi sərvətimizin əvəzsiz nümunələridir.

**Aparıcı:** Onun Üzeyir Hacıbəyli yaradıcılığına verdiyi qiyməti bu fikirlərindən daha aydın görmək olar:

“Üzeyir Hacıbəyli yaradıcılığı böyük məktəbdir. Bu məktəbi hələ çoxları keçəcək, bu məktəbdən çoxları öyrənəcək”

“Üzeyir Hacıbəyli sənət irsinin əsl qiyməti məhz bu gün üçün nə dərəcədə müasir olmasında, gərəkli olmasındadır.”

“Leyli və Məcnundan”, “Koroğluya qədər” keçilən böyük sənət yolu gərgin yaradıcılıq axtarışları və qiymətli sənət kəşfləri ilə zəngin bir yoldur

**Aparıcı:** Üzeyir Hacıbəyli irsini yüksək dəyərləndirən Fikrət Əmirov öz həssas, qayğıkeş müəlliminin vəfatından çox təsirlənərək bəstəkarın xatirəsinə “Üzeyir Hacıbəyliyə ithaf”- “Elegiya” bəstələmişdir. http://musakademiya.musigi-dunya.az/noti/amirov_elegiya_uz.pdf

**Aparıcı**: Bəstəkarımız Fikrət Əmirovun yaradıcılığında Nizami mövzusu xüsusi yer tutur. Bəstəkar üçpərdəli “Nizami” (1984) baletini (libretto: Nailə Nəzirova və Altay Məmmədov) yazıb. Baletin quruluşçu xoreoqrafı Vadim Budarin, dirijoru Kazım

Əliverdibəyov, rəssamları Toğrul Nərimanbəyov (dekorasiya), Tahir Tahirov (geyim eskizləri) olub. Fikrət Əmirovun vəfatından sonra bəstəkar Musa Mirzəyev müəllif musiqisinin xüsusi yazılışı – direksionu əsasında əsərin klavirini, sonra isə partiturasını tərtib edib.
**Aparıcı:** Balet Nizami Gəncəvinin 850 illik yubileyi münasibətilə 1991-ci ilin noyabr ayında Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində, sonra isə Moskvada nümayiş etdirilmişdir.
**Aparıcı:** Baleti yazarkən bəstəkarın əsas məqsədi şairin qəhrəmanlarını yaratmaq deyil, bu qəhrəmanların danışdığı ideyaları canlandırmaq idi. Baletin süjeti xoreoqrafik triptix kimi düşünülərək böyük şairin həyatının üç məqamı ikipərdəlik balet tamaşasında əks olunur. Birinci məqam: şair və hakimiyyət, ikinci məqam: şair və məhəbbət, üçüncü məqam: şair və ilham pərisi.

*(Baletdən parça nümayiş edilir )*

https://www.youtube.com/watch?v=MDC7ZQX9rlQ
**Aparıcı:**Fikrət Əmirovun **"Simfonik portretlər"** əsəri isə 7 hissədən ibarətdir. Bu obrazların tərənnümü üçün əsərdə şair Teymur Elçinin mətnlərindən istifadə edib.
"Simfonik portretlər" əsərinin *birinci hissəsi* Azərbaycan vokal sənətinin görkəmli nümayəndəsi Bülbülə ithaf olanun əsərlə başlayır. Bəstəkar burada Bülbülün repertuarından Asəf Zeynallının Cəfər Cabbarlının sözlərinə bəstələdiyi **"Ölkəm"** romansının intonasiyalarından da istifadə edir. Orkestr bu intonasiyaya əlavə olaraq Teymur Elçinin Azərbaycana həsr olunan şeirinin misralarını xüsusi pafosla söyləyir.
Söz: Cəfər Cabbarlı

Mus: Asəf Zeynallı

Şiş ucları buludlarla döyüşən
Dağlarında buzları var ölkəmin.
Göy otlardan yaşıl paltar geyinən
Tarlaları, düzləri var ölkəmin.
Göllərində ördəkləri üzərlər,
Çöllərində maralları gəzərlər,
Güllərindən gəlinlər tac bəzərlər,
Ceyran gözlü qızları var ölkəmin.
Ah, ölkəmin, ah, ölkəmin.

**Aparıcı:**Əsərin *ikinci hissəsi* Cəfər Cabbarlıya həsr olunmuşdur. Əsərin bu hissəsi monoloq şəklində yazılmışdır. Burada orkestrlə metso-soprano səsi daxil edilir. O, bəstəkarın "Cəfər Cabbarlının portreti" vokal əsərindən bəzi parçaları ifa edir. Sonra Teymur Elçinin şairə həsr etdiyi şeir səslənir.

"Simfonik portretlər" əsərinin *üçüncü hissəsi* Səməd Vurğunla bağlıdır. Bu portretin musiqi dilində aşıq intonasiyaları hiss olunur ki, bu da şairin daxili aləmi ilə bağlıdır. Buradakı musiqi şairin "Azərbaycan" şeirinin misraları ilə həmahəng səslənir.

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən,
Anam doğma vətənimsən!
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan!

Mən bir uşaq, sən bir ana,
Odur ki, bağlıyam sana,
Hanki səmtə, hanki yana
Hey uçsam da yuvam sənsən,

Elim, günüm, obam sənsən!

Əsərin *dördüncü bölməsi* Üzeyir Hacıbəyova həsr olunub. Bəstəkar Üzeyir Hacıbəyova olan sevgisini musiqi dili ilə ifadə etməyə çalışıb. Belə ki, bu nömrədə Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" operasından bəzi musiqi nömrələrinə istinad edilərək Fikrət Əmirov tərəfindən orkestrləşdirilir. Burada Teymur Elçinin şeiri də səslənir."Simfonik portretlər" əsərinin *beşinci hissəsi* maestro Niyaziyə həsr olunub. Burada onun musiqi sənətində olan yeri, mövqeyi daha aydın ifadə olunur. *Əsərin altıncı hissəsi* görkəmli dramaturq Hüseyn Cavidə ithaf olunub. Bunun üçün bəstəkar yenə də əvvəlki nömrələrdə olduğu kimi koloritli səsin ifasından istifadə edir. Vətənpərvərliyi tərənnüm edən *yeddinci hissə* "Ölkəm" adlanır. Epiloqda yenə də Azərbaycana himn deyilir.

**Aparıcı:** Fikrət Əmirov yaradıcılığından danışarkən daim poeziyaya maraq göstərmiş və Azərbaycan klassik şairlərinin obrazlarını öz musiqilərində əbədiləşdirmişdir. Bu mənada bəstəkarın "Nizami" simfoniyası, "Nizami", "Nəsimi dastanı" baletlərini nümunə göstərmək mümkündür. Bəstəkarın "Simfonik portretlər" əsərində də Hüseyn Cavid, Cəfər Cabbarlı kimi ədiblərin obrazları Əmirovun musiqisi ilə yüksək bədii ideyaları əks etdirən melodik çalarlarla təqdim olunur. Bəstəkarın belə əsərlərindən biri də "Vaqifi" simfonik poemasıdır. Əsər 1964-cü ildə şair, Qarabağ xanlığının vəziri Molla Pənah Vaqifin poeziyasına məhəbbətin ifadəsi kimi qələmə alınıb.

Əsər haqqında Fikrət Əmirov 1983-cü ildə nəşr olunan "Musiqi düşüncələri" kitabında yazır ki, "Böyüklük", "dahilik" ifadələri Molla Pənah Vaqifi heç də başqa böyük, dahi şairdən fərqləndirmir. Mənə elə gəlir ki, Vaqif haqqında nəsə daha ülvi bir söz demək lazımdır. Mən şəxsən o sözü tapa bilmirəm. Bir onu bilirəm ki, o sözü axtara-axtara ixtiyarsız olaraq pianonun arxasına keçmişəm,

Vaqif haqqında düşünə-düşünə Vaqifi" simfonik-poemasını yazmışam.
Fikrət Əmirovun bu düşüncələrlə 1964-cü ildə yazdığı "Vaqif" poeması da onun yaradıcılıq üslubuna xas olan melodiyalardan ibarətdir.

**Fikrət Əmirov və xalq musiqisi:**

**Aparıcı:** "Mənim yaradıcılıq xəmirim xalq musiqisi ilə yoğrulub" deyən Fikrət Əmirovun bu fikirlərində onun nə qədər xalq musiqisinə bağlığın ifadəsini görürük. Bəstəkarın ən məşhur mahnılarından biri də Hüseyn Cavidin "Şeyx Sənan" dramına yazdığı Kor ərəbin mahnısı buna nümunədir. Bu mahnı bir çox illərdir ki, müstəqil mahnı kimi konsertlərdə ifa edilir. Mahnı özündə qədim nəğmələrin intonasiya xüsusiyyəti ilə faciəvi ifadəliliyi birləşdirir. İnsanın kədəri, məhkumluq, dözülməz əzab ifadəsinin rəmzi olan bu mahnının mənbəyi muğamlar, mərasim mahnıları, bayatılar, oxşamlardır.

Nə eşq olaydı, nə aşiq, nə nazlı afət olaydı!
Nə xəlq olaydı, nə xaliq, nə eşqi-həsrət olaydı!
Nə dərd olaydı, nə dərman, nə sur olaydı, nə matəm!
Nə aşinayi-vüslət, nə bari-firqət olaydı!
Könüldə nuri-məhəbbət, gözümdə pərdeyi-zülmət!
Nə nur olaydı, nə zülmət, nə böylə xilqət olaydı!
Tükəndi taqəti-səbrim, ədalət,ah! Ədalət!
Nə öncə öylə səadət, nə böylə zillət olaydı!

**Aparıcı:** Doğrudan da Fikrət Əmirov milli və professional musiqimizin böyük dayağıdır. Bu dayaq Fikrət Əmirovun ölməz musiqisidir ki, o, bütün nəsillərə örnək olacaq. İnsanları daim mənəvi saflığa və vətənpərvərliyə səsləyəcək.
**Aparıcı:** Bunu biz bəstəkarın musiqisini yazdığı "Böyük dayaq" kinofilminin musiqisindəndə hiss edə bilərik.

**F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin hazırladığı ədəbiyyat siyahısı**

**Ədəbiyyat siyahısı:**

**Kitablarda**

Abbaszadə H. (1922-2007). Muğamın qanadlarında ucaldı : Fikrət Əmirov haqqında // Nurdan yoğrulmuşlar. - Bakı: Avrasiya Press, 2008. - S. 387-416.

Bayram T. (1934-1991). Fikrət Əmirovun xatirəsinə: şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 148-150.

Fikrət Əmirov // Azərbaycan musiqi dünyası = Azerbaijan music world. - Bakı : Nurlar, 2001. – S. 37. Azərbaycan və ingilis dillərində.

Fikrət Əmirov : Biblioqrafiya. - Bakı: Çinar-Çap, 2009. - 271 s. - (Azərbaycanın Görkəmli Şəxsiyyətləri).

Hidayətqızı S.  Fikrət Məşəd Cəmil oğlu Əmirov // Muğam qəsri.. - Bakı : Apostrof, 2016. – S. 228-230.

Fikrət Məşəd Cəmil oğlu

. 228-230.

Təhmirazqızı S. Fikrət Əmirov. - Bakı : Aspoliqraf, 2012. - 400 s.

Dövrü mətbuatda

Abbaslı T. Ümumhalət sənətkarı... : Fikrət Əmirov - 90 // Mədəniyyət. - 2012. - 21 noyabr. - № 84. - S. 7.

Abbaslı T. Layla-bayatı simfoniyalı... : eyzən tufan coşğulu, atom təlatümlü, hərdən də bəmi-ahəstə bəstələr bəstəkarı - Fikrət Əmirov // Mədəniyyət. - 2016. - 18 noyabr. - № 88. - S. 12.

Abbaslı T. Ümumbəşər fitrətli, dünya şöhrətli Fikrət : Bu cavan Amerika salonu qocaman Şərq xəyalatına dalmışdı... // Mədəniyyət. - 2011. - 25. 11. - № 87. - S. 7.

Allahverdiyev V. Fikrət Əmirovun fortepiano üçün yazdığı 12 miniatür məcmuəsində milli üslub keyfiyyətləri // Mədəni Maarif. - 2011. - № 1. - S. 63--65.

Anar. Sadəliyi dərketmə : musiqi tarixində əvəzsiz rolu olan bəstəkarlar // Qobustan. - 2017. - № 3. - S. 6-13.

Azəri L. Məmməd Səid Ordubadi və musiqi // Mədəniyyət. - 2012. - 19 dekabr. - № 92. - S. 13.

Babayev A. Son görüş : Fikrət Əmirov // Mədəni Həyat. - 2013. - avqust. - № 8. - S. 61-62.

Bayramova Z. Azərbaycan musiqisini zənginləşdirən böyük bəstəkar : Dövlət başçısının Sərəncamı ilə simfonik muğam janrının banisi Fikrət Əmirovun 100 illik yubileyi qeyd olunacaq // Səs. - 2022. - 17 mart. - № 49. - S. 12.

Belarus səhnəsində əsrarəngiz "Min bir gecə" : Fevralın 16-da Belarus dövlət Akademik Musiqili Teatrında Azərbaycan bəstəkarı Fikrət Əmirovun "Min bir gecə" baletinin ilk tamaşası olub // Mədəniyyət. - 2014. - 19 fevral. - № 13. - S. 8.

Əfəndiyeva İ. 41-45 in mahnıları // Qobustan. - 2017. - № 1. - S. 27-28.

Əliyeva İ. Musiqidə yaşayan əbədiyyət // Azərbaycan : qəzet. - 2022. - 17 aprel. - № 79. - S. 6.

Fərəcov S. Bəstəkar yaradıcılığının kəhkəşanı : Fikrət Əmirov // Mədəniyyət. - 2012. - 2 noyabr. - № 79. - S. 10.

Fərəcov S. Böyük şöhrətin astanasında : Fikrət Əmirov - 100 // Mədəniyyət : qəzet. - 2022. - 19 yanvar. - № 4. - S. 6.

Fikrət Əmirov (1922-1984) // Savalan. - 2013. - 24-27 may. - № 36. - S. 2.

Fikrət Əmirovun 100 illik yubileyi qeyd ediləcək : Prezident İlham Əliyev bununla bağlı sərəncam imzalayıb // 525-ci qəzet. - 2022. - 16 mart. - № 48. - S. 2

Hüseynov Ə. Fikrət Əmirovun etirafı // 525-ci qəzet. - 2020. - 29 yanvar. - № 10. - S. 19.

Xəlilzadə F. Açılan səhərin şəfəqləri : Fikrət Əmirov - 90 // Azərbaycan. - 2012. - 22 noyabr. - № 260. - S. 6.

Xəlilzadə F. Bəşər mədəniyyətinin inciləri : Şuşanın işğalından 20 il ötür : Əbədiyaşar ömürlər // Azərbaycan. - 2012. - 21 aprel. - № 86. - S. 7.

Kazımzadə A. Kinomuz, musiqimiz // Mədəniyyət. - 2009. - 18 sentyabr. - N 68. - S. 10.

Qiyas Ə. Cəmil Əmirov: "Musiqi onun həyatının mənası idi" : [Varislərin bugünkü qonağı xalq artisti, ictimai xadim Fikrət Əmirovun varisi tanınmış musiqiçi, bəstəkar Cəmil Əmirovdur] // Ədəbiyyat qəzeti. - 2020. - 4 iyul. - № 20/21. - S. 16-17.

Qulamova J. Mənim yaradıcılıq xəmirim xalq musiqisi ilə yoğrulub // Mədəniyyət : qəzet. - 2022. - 15 aprel. - № 29. - S. 7.

Məmmədli N. Azərbaycan bəstəkarlıq məktəbinin böyük nümayəndəsi : Filarmoniyada Fikrət Əmirovun 100 illiyi

münasibətilə konsert // Mədəniyyət : qəzet. - 2022. - 20 aprel. - № 30. - S. 3.

Mükərrəmoğlu M. Qara Qarayev: Fikrət Əmirov muğamı dünya üçün anlaşıqlı etdi // Xalq qəzeti. - 2010. - N 258. - S. 6.

Onun əsərləri... göstərir ki, bu insanda milli duyğiular nə qədər yüksək səviyyədə idi : Sentyabrın 19-da Fikrət Əmirovun xatirəsinə ucaldılmış abidənin açılışı olmuşdur // Ədəbiyyat qəzeti. - 2011. - 23 sentyabr. - № 35. - S. 1-2.

Pərvin. Gəncə... və Fikrət Əmirov ... // 525-ci qəzet. - 2018. - 28 iyul. - № 135. - S. 10-11.

"Sevil" operası yaşayır və yaşayacaqdır : Azərbaycan Prezidenti Heydər Əliyev Akademik Opera və Balet teatrında əsərin yeni quruluşda ilk tamaşasına baxmışdır // Ədəbiyyat qəzeti. - 2013. - 9 may. - № 17. - S. 4-5.

Səməd M. Azərbaycan xalq mahnıları : Fikrət Əmirov // Ədəbiyyat qəzeti. - 2012. - 4 avqust. - № 29. - S. 2, 6

Təhmirazqızı S. Musiqimizin böyük dayağı: Fikrət Əmirov // Mədəniyyət. - 2010. - 24 noyabr. - N 82. - S. 12.

Vəfalı A. Yazmaya bilmədim : Fikrət Əmirov və Heydər Əliyev haqqında // Ədəbiyyat qəzeti. - 2009. - 8 may. - S. 2.

Vəfalı A. Yazmaya bilmədim : Fikrət Əmirov haqqında xatirələr // Ədəbiyyat qəzeti. - 2012. - 5 may. - № 16. - S. 1.

Zərbəliyev C. Musiqi kəhkəşanının parlaq ulduzu // Mədəniyyət. - 2012. - 23 noyabr. - № 85. - S. 2.

# Ümumdünya şöhrəti qazanmış bəstəkar Fikrət Əmirov

**(metodik vəsait)**

**Komputer yığımı və dizayn:** **Nərgiz Məcidova**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**